Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 26, 2023. 48-56
DOI: 10.30546/2616-4418.26.2023.48

# AZƏRBAYCANIN İXRAC MƏHSUL ÇEŞİTLƏNDİRİLMƏSİNDƏ QEYRİ-NEFT İXRACI

**Adil HÜSEYNOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti,Bakı, Azərbaycan*

**Cəmil TAĞIYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti,Bakı, Azərbaycan*

## Giriş

Qlobal dünyada ölkələrin sahib olduqları iqtisadi rifahı qorumaq, dayanıqlı iqtisadi artıma nail olmaq üçün ixracatın inkişafına xüsusi əhəmiyyət verirlər. Klassik iqtisadçıların dediyi müəyyən məhsul üzrə ixtisaslaşma getdikcə əhəmiyyətini itirməkdədir. Belə ki, məhdud məhsul üzrə ixracatda ixtisaslaşmaq dünya bazarında dalğalanmalarla ölkə iqtisadiyyatına zərər verir. Ona görə də ölkələrin ixrac məhsul səbətini genişləndirməsi zərurəti yaranır. Ölkənin ixracat səbəti nə qədər genişdirsə, o qədər də risklər azalmış olur. Bunu ixracında daha çox neft-qaz sektorunun payı olan ölkəmizin 2015-ci ildəki təcrübəsində də gördük. Neft qiymətlərinin aşağı düşməsi nəticəsində manata olan təhdidlər artmağa başladı və ölkə devalvasiyaya getdi. Xarici ticarətlə yarana biləcək risklərə qarşı ixrac məhsul səbətinin genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan qeyri-neft

CC BY NC ND

sektorunun ixracda payının artması risklərin azalmasına səbəb olur. Bunları nəzərə alaraq dövlətin ixrac təşviqləri ilə əmtəə və xidmətlərin çeşitliliyi artmağa başlayıb. Təkcə 2021-ci ildə 3386 çeşiddə məhsul ixrac olunub. 3386 çeşiddə məhsul ixrac edilsə də, statistik dəyər baxımından ixracın tərkibində daha çox neft sektoru məhsulları üstünlük təşkil edir. Qeyri-neft sektoru ixracında kimya sənayesi, metallurgiya və kənd təsərrüfatı məhsulları üstündür. Azərbaycanın 44 günlük vətən müharibəsi ilə uzun illər işğal altında olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərini azad etməsindən sonra həmin ərazilərin də iqtisadiyyatımıza reinteqrasiyası ilə qeyri-neft sektorunun ixrac həcmi daha da artacaq.

## Qeyri-neft ixracının müasir vəziyyəti

1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" adlanan neft kontraktları ilə Azərbaycanın neft-qaz sektoruna aid məhsulların ixracı imkanları yarandı. Ölkənin iqtisadi inkişafına nail olmaq üçün neft-qaz sektoru üzrə ölkəyə daxil olan gəlirlərin artması qeyr-neft sektorunun inkişafı üçün maddi bazanın formalaşmasına səbəb oldu. Son illər ərzində dünya iqtisadiyyatında baş verən hadisələr neft-qaz sektoruna ciddi təsir etməkdədir və qiymət dinamikasının dəyişməsinə səbəb olur. Pandemiyanın başlaması ilə neft qiymətləri minimum səviyyəyə qədər endi. Cari ildə Rusiya-Ukrayna müharibəsi ərzaq təhlükəsizliyinin vacibliyini sübuta yetirdi. Bütün bunları nəzərə alaraq ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, qeyri-neft ixracının ümumi ixracda çəkisinin artırılması baxımından qeyri-neft sektoruna diqqətin daha da artırılmasına səbəb oldu. Qeyri-neft sektorunun inkişafı dövlətin əsas məqsədlərindən biridir. Bu məqsədlərə çatmaq üçün dövlət proqramları və strategiyalar qəbul edildi. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları bu qəbildən çox önəmlidir. Qeyri-neft sektoruna dövlət dəstəyi nəticəsində qeyri-neft sektorunun ÜDM tərkibində yeri getdikcə artmaqdadır.

**Cədvəl 1. Qeyri-neft ÜDM**(*milyon manatla*)

| İllər | Cəmi ÜDM | Qeyri-neft sektoru |
|---|---|---|
| 2016 | 60425.2 | 35951.1 |
| 2017 | 70337.8 | 40328.0 |
| 2018 | 80092.0 | 41662.0 |
| 2019 | 81896.2 | 44481.8 |
| 2020 | 72578.1 | 45312.2 |
| 2021 | 92857.7 | 51082.9 |

**Mənbə:** stat.gov.az

Cədvəl 1-dən də görünür ki, 2020-ci il pandemiya ilə əlaqədar olaraq dünyada azalma olmasına baxmayaraq qeyri-neft ÜDM artım trendini davam etdirmişdir. Qeyri-neft sektorunun inkişafı nəticəsində ixrac imkanları genişlənir. Qeyri-neft ixracın statistikasına baxanda metallurgiya, kənd təsərrüfatı, kimya sənayesi məhsulları statistik dəyərdə daha çoxdur.

**Cədvəl 2. Qeyri-neft ixracı(2018-2021-ci illər)**

| İllər | Qeyri-neft ixracı(milyard ABŞ dolları) | Cəmi ixracda payı (%-lə) |
|---|---|---|
| **2018** | 1.69 | 8.67 |
| **2019** | 1.95 | 9.95 |
| **2020** | 1.9 | 13.87 |
| **2021** | 2.7 | 12.16 |

**Mənbə:** customs.gov.az

Dövlətin qeyri-neft sektoruna dəstəyi, ixrac mallarına güzəştlər, beynəlxalq sərgilərdə iştirak nəticəsində neft sektoruna aid olmayan ixrac həcmi ümumi ixracda artım dinamikası göstərməkdədir. 2020-ci ilin pandemiya ilə əlaqədar olaraq ölkələrin sərhədlərini bağlaması, qapanmalara getməsi xarici ticarətə də təsirsiz ötüşməmişdi. Buna baxmayaraq həmin il üzrə ixracda azalma olsa da, qeyri-neft ixracında sabitlik qorunmuşdur. 2021-ci ildə qeyri-neft sektorunda əvvəlki illərdən rekord göstərici ilə 2.7 milyard dollar həcmində ixrac gerçəkləşmişdir. İstər qeyri-neft sektorunun ixracında, istərsə də ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatının əhəmiyyətli payı var.

## Qeyri-neft ixracında kənd təsərrüfatının yeri

Son illər ərzində dünyada baş verən hadisələr ərzaq təhlükəsizliyinin nə qədər önəmli olduğunu göstərməkdədir. Ölkələrin ərzaq təhlükəsizliyini təmin etməsi üçün kənd təsərrüfatının inkişafı labüddür. Kənd təsərrüfatı həm inkişaf etmiş, həm də inkişafda olan ölkələrin iqtisadiyyatında önəmli yer tutur. Ölkələrin sahib olduqları ərazilərin kənd təsərrüfatı üzrə istifadə etməsi və qorunması bu baxımdan önəmlidir. Xüsusilə də getdikcə artan əhalinin tələbatını ödəmək imkanları məhdud resurslar ilə azalır. Ona görə də ölkələrin intensiv inkişaf yolunu seçməsi, torpaqlardan səmərəli istifadəsi, yeni torpaqların əkin üçün yararlı vəziyyətə gətirilməsi önəmlidir. Azərbaycanda kənd təsərrüfatının inkişafı üzrə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair”, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf”, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı”, “Azərbaycan Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci

illər üçün", "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair", "Azərbaycan Respublikasında yay və qış otlaqlarından səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair" dövlət proqramları və digər proqramlar qəbul edilmişdir. Nəticədə Azərbaycanda əhalinin kənd təsərrüfatı məhsulları ilə təminat səviyyəsi yüksəlir və ixrac imkanları artır. Statistika Komitəsinin məlumatına əsasən, Azərbaycanda 2020-ci il üzrə kənd təsərrüfatına yararlı torpaqlar 4780.1 min hektar olub ki, onun da 42.8 faizi əkinə yararlı torpaqlardır. (Kənd təsərrüfatına yararlı torpaqlar, https://www.stat.gov.az/source/agriculture/)




**Mənbə:** stat.gov.az(31.08.2022)

Kənd təsərrüfatının ÜDM-də payı da illər üzrə artmışdır. Əgər 2016-cı ildə ÜDM tərkibində kənd təsərrüfatı 3386.8 milyon manat idisə, 2020-ci ildə 5016.4 milyon manat olmuşdur ki, bu da ümumi ÜDM-də kənd təsərrüfatının payı 6.7 faiz olması deməkdir. (İqtisadiyyatın sahələri üzrə ümumi daxili məhsul, https://stat.gov.az/source/agriculture/)

**Cədvəl 3. Kənd təsərrüfatının ÜDM-də yeri(*milyon manatla*)**
**Mənbə: stat.gov.az(31.08.2022)**

| İllər | Cəmi ÜDM | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq |
|---|---|---|
| 2016 | 60425.2 | 3386.8 |
| 2017 | 70337.8 | 3944.1 |
| 2018 | 80092.0 | 4174.8 |
| 2019 | 81896.2 | 4664.2 |
| 2020 | 72432.2 | 5016.4 |

2020-ci il ərzində məşğul əhalinin 1771.9 min nəfərinin məşğul olduğu kənd təsərrüfatı məşğulluğun təminində də əsas yerdən birini tutur. İstehsal edilən

məhsulların daxili və xarici bazarlara çıxarılması imkanlarının genişləndirilməsi nəticəsində kənd təsərrüfatı məhsullarının ixracı artmaqdadır. Kənd təsərrüfatı məhsullarının ixrac statistikasına baxdıqda əsasən meyvə-tərəvəzin statistik dəyəri daha çoxdur. "2018-ci ildə ixrac olunan qeyri-neft məhsulları arasında pomidor (177.4 milyon ABŞ dolları) birinci, xurma (114.5 milyon dollar) üçüncü olub."( https://ereforms.gov.az/files/review/pdf/az/43a507aff0454c1d23d821dfb44a47f4.pdf) İxracın ümumi tərkibində kənd təsərrüfatı məhsulları üzrə meyvə-tərəvəz, çay, pambıq, bitki və heyvan mənşəli yağlar, şəkər statistik dəyər üzrə daha çoxdur.

**Cədvəl 4. Əsas kənd təsərrüfatı məhsullarının ixracı(*milyon dollarla*)**

| İllər / Məhsullar | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Meyvə-tərəvəz | 559.6 | 605.82 | 607.51 | 630.38 |
| Pambıq lifi | 80.46 | 123.98 | 133.26 | 210.92 |
| Pambıq iplik | 23.67 | 30.16 | 18.95 | 58.12 |
| Çay | 9.37 | 9.51 | 9.46 | 8.49 |
| Bitki və heyvan yağı | 16.86 | 18.45 | 24.73 | 32.23 |
| Şəkər | 24.97 | 26.88 | 26.90 | 32.09 |
| **Cəmi** | **714.93** | **814.8** | **820.81** | **972.23** |

**Mənbə:** customs.gov.az

Kənd təsərrüfatı təkcə ərzaq təhlükəsizliyi üçün önəmli deyil, eyni zamanda sənaye üçün xammal rolunu da oynayır. Cədvəl 4-də göstərildiyi kimi ixracın tərkibində xammal kimi pambıq məhsulları da var. Yuxarıdakı cədvəldən də göründüyü kimi əsas məhsullar arasında meyvə-tərəvəzin payı daha çoxdur. Meyvə-tərəvəzin tərkibinə baxdıqda 2021-ci il üzrə pomidor 160.23 milyon, xurma 125.9 milyon, fındıq 111.79 milyon, kartof 40.08 milyon dollar və.s təşkil edir.

Qeyri-neft məhsullarının ixracında məhsul çeşidliyi qədər bazar çeşidliyi də önəmlidir. Buna görə də ixracın şaxələndirilməsi bazar olaraq da müəyyən edilir. Bu məhsullar üzrə əsas ixrac ölkəsi 32.35%-lik payı ilə Rusiyadır. Neft sektoruna aid olmayan məhsullar üzrə ixracda ilk 5-lik olaraq Rusiya (32.35%), Türkiyə (24.91%), İsveçrə (8.26%), Gürcüstan (5.8%), ABŞ (2.76%) gəlir. Bu ölkələrin ümumi qeyri-neft ixracındakı payı 74.08%-dir.

## Nəticə

Qeyri-neft sektorunun inkişafı dövlətin diqqət mərkəzindədir. 2004-cü ildən başlayaraq qəbul edilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları bu diqqətin göstəricisidir. Bunların nəticəsidir ki, ÜDM tərkibində ildən-ilə qeyri-neft sektorunun payı yüksəlməkdədir. Ölkənin iqtisadi inkişafı nəticəsində ixrac imkanları artmışdır. İxracın qeyri-neft həcmi getdikcə artmaqdadır. İxrac məhsul səbətinin genişliyi dünya bazarında qeyri-neft sektoru üzrə də təmsil olunmağı ehtiva edir. Qeyri-neft ixracının çeşidliyi və həcminin artması ümumi ixracda payını yüksəldir. Göstərdik ki, qeyri-neft sektorunun ixracında kimya sənayesi, metallurgiya, kənd təsərrüfatı inkişafdadır. Bu sahələr içində kənd təsərrüfatının xüsusi yeri var. Ölkənin kənd təsərrüfatı üzrə ehtiyyatlarından səmərəli istifadə edilməklə ixrac potensialı yüksəlir. 44 günlük Zəfər Tariximiz ilə işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur regionlarının ölkə iqtisadiyyatına reinteqrasiyası nəticəsində ixrac həcmi daha da artacaq. Bu regionların iqtisadiyyata qazandırılması mədən, turizm, kənd təsərrüfatı, yüngül və yeyinti sənayeləri,eləcə də kreativ iqtisadiyyat üçün artım trendine çevriləcək. İxrac məhsul çeşidliyində statistik dəyər olaraq artım dünya bazarında gedən proseslər nəticəsində yaranan dalğalanmalardan mənfi təsir meyllərini azaldacaq, dayanıqlı və sabit ixraca səbəb olacaq. Eyni zamanda yeni bazarlara çıxışın təmin olunması ilə ixrac bazar çeşidliyi riski bölüşdürüləcək.

## Açıqlama bəyanatı

Müəlliflər tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir .

**Əlaqə**

**E-mail:** cemil.tagi@mail.ru

## Ədəbiyyat:

Azərbaycan Dövlət Statistika Komitəsi. https://stat.gov.az/source/agriculture/
Azərbaycan Dövlət Statistika Komitəsi. https://stat.gov.az/source/system_nat_accounts/
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, https://customs.gov.az/az/faydali/gomruk-statistikasi/xarici-ticaretin-veziyyeti-haqqinda
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, https://ereforms.gov.az/az/ixrac-icmali?page=5
e-qanun.az
president.az
nk.gov.az

**Məqaləyə istinad edin:** Hüseynov.A, Tagiyev,C., Azərbaycanın ixrac məhsul çeşitləndirilməsində qeyri-neft ixracı. Elm və İnnovativ Texnologiyalar Jurnalı.Nömrə 26,2023..48-56. DOI: 10.30546/2616-4418.26.2023.48

## SUMMARY

# NON-OIL EXPORT IN AZERBAIJAN'S EXPORT PRODUCT RANGE

**Adil Huseynov**
**Azerbaijan State Economic University, Baku, Azerbaijan**

**Camil Tagiyev**
**Azerbaijan State Economic University, Baku, Azerbaijan**

Export diversification is known in two ways: export product diversification or export market diversification. Export product diversification means expanding the export basket, and export market diversification means access to new markets. The width of the markets and the export product basket also reduces the risks. Diversity gains importance in exports in Azerbaijan. Exploration of new markets, access to new markets, and abundance of export baskets protect against future risks and ensure sustainable development. The article shows the current situation and development dynamics of non-oil exports in Azerbaijan.

***Keywords:*** Foreign trade, export product assortment, non-oil sector, agriculture

## РЕЗЮМЕ

# НЕНЕФТЯНОЙ ЭКСПОРТ В АССОРТИМЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ ЭКСПОРТНОЙ ПРОДУКЦИИ

**Адиль Гусейнов**
**Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан**

**Джамиль Тагиев**
**Азербайджанский Государственный Экономический Университет, Баку, Азербайджан**

Диверсификация экспорта известна двумя способами: диверсификация экспортной продукции или диверсификация экспортного рынка. Диверсификация экспортной продукции означает расширение экспортной корзины, а диверсификация экспортных рынков означает доступ к новым рынкам. Широта рынков и экспортная продуктовая корзина также снижают риски. Разнообразие приобретает все большее значение в экспорте Азербайджана. Исследование новых рынков, доступ к новым рынкам и изобилие экспортных корзин защищают от будущих рисков и обеспечивают устойчивое развитие. В статье показано текущее состояние и динамика развития ненефтяного экспорта в Азербайджане.

***Ключевые слова:*** Внешняя торговля, ассортимент экспортной продукции, ненефтяной сектор, сельское хозяйство.